*NƏSİLLƏRƏ NÜMUNƏ*

# ÖMRÜNÜ MƏŞƏLƏ ÇEVİRƏN İNSAN

**Oğuz elinin zümrüd qaşı sayılan Göyçə mahalının adı çəkiləndə Azərbaycan aşıq sənətinə, elminə, ədəbiyyatına, incəsənətinə görkəmli şəxsiyyətlər bəxş etmiş, dünyada tanınan ictimai-siyasi xadimləri, yaradıcı ziyalıları göz önündə canlanır. Bu yazıda aşıqlar yurdu, söz-sənət diyarı ulu Göyçə mahalının yetirməsi, el ağsaqqalı, tanınmış peşəkar müəllim, SSRİ maarif əlaçısı, "Əməkdar müəllim", SSRİ Jurnalistlər İttifaqının üzvü, Böyük Vətən müharibəsi iştirakçısı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" media mükafatı laureatı, H.B.Zərdabi mükafatçısı, yazıçı-publisist Cəmşid Xəlilovun mənalı həyat yolundan söhbət açacağıq.**



O, el arasında fəlsəfi və ədəbi-tənqidi fikrin fəal nümayəndəsi kimi tanınmışdır. Qəlbinin hərarətini, gözlərinin nurunu gənc nəslin təlim-tərbiyəsinə sərf edən bir müəllim, ensiklopedik biliyə malik olan bir jurnalist kimi ayrı-ayrı illərdə Cəmşid Xəlilov haqqında onlarca məqalələr hazırlanıb. Geniş erudisiyaya malik Cəmşid müəllimin əmək fəaliyyəti mətbuatla sıx bağlıdır. Göyçənin sayılıb-seçilən oğullarından olan bu insan jurnalistika sahəsində ömrünü məşələ çevirmiş, öz məzmunlu yazılarında cəmiyyətdə baş verən hadisələri həmişə obyektiv işıqlandırmış, necə deyərlər, imzası imzalar içərisində tanınmışdır.

Cəmşid Xəlilov 1932-ci ildə dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Göyçə gölünün nəğməli sahillərində—Basarkeçər rayonunun Kiçik Məzrə kəndində dünyaya göz açmış, məktəb illərində aşıq poeziyasına, dahi el sənətkarı Aşıq Ələsgərin, Aşıq Alının yaradıcılığına böyük maraq göstərmiş, xalqımızın əxlaqi sərvətlərini, mənəvi dəyərlərini, adət-ənənələrini öyrənmiş, Göyçənin atlas geyimli dağları, düzləri, qayaları, şərbət bulaqları, çöllərin ətri, təravəti, gözəlliyi onun diqqətini cəlb etmişdir.

Yeni nəşr olunan kitabları o, əl-əl gəzər, tapar, xəyalında hər vaxt oxuduğu əsərlərin qəhrəmanları canlanar, humanitar elmlərə sonsuz maraq göstərərdi.

Cəmşid Xəlilov iki yaşında ikən atasını itirmiş, əmək qabaqcılı olan Mələk ana 3 uşağı böyüdüb, boya-başa çatdırmaq üçün ikiqat qüvvə ilə çalışmışdır. Belə bir vaxtda Böyük Vətən müharibəsinin başlanması bu ailənin vəziyyətini daha da ağırlaşdırdı, cəbhədən bir-birinin ardınca gələn acı xəbərlər Xəlilovlar ailəsinin rahatlığını tamam pozdu, nə ərzaq çatırdı, nə isti paltar, nə də ki, qışın boran-şaxtasından qorunmaq üçün rahat bir daxma...

Balaca Cəmşid gecə dərslərini çıraq işığında hazırlayar, hərdən xəyal onu öz qoynuna alıb cəbhəyə, səngərlərə aparar, hərdən isə ata həsrəti ilə qovrula-qovrula yuxuya gedərdi...

İllər, quş qanadlı illər ötüb keçdi. Cəmşid Xəlilov qəlbinin hökmü ilə Qazax ikiillik Müəllimlər İnstitutuna daxil oldu. O, buranı fərqlənmə diplomu ilə bitirdi, daha sonra təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qiyabi yolla davam etdirdi.

Doğma kəndlərindəki məktəbdə müəllim kimi əmək fəaliyyətinə başladı Cəmşid Xəlilov. O, qürur hissi keçirirdi ki, hər dərs ili başa çatanda orta məktəb məzunlarının 80-90 faizi müxtəlif ali məktəblərə daxil olurdu. Bir müddət keçdikdən sonra Mələk ananın sayılıb-seçilən sevimli oğlu Cəmşid Basarkeçər rayonunun Əzizli kənd məktəbinə məktəb direktoru təyin olundu. Bu təhsil ocağında o, gənc nəslin elmi biliklərlə mükəmməl yiyələnməsinə maksimum səy göstərdi. Əzizli məktəbi rayonun qabaqcıl təhsil ocaqlarından birinə çevrildi.

Cəmşid müəllimin qəlbində yuva salmış "publisist qığılcımı" onu rahat buraxmır, getdikcə alovlanırdı. Çox keçmədən arzusuna qovuşdu, ədəbiyyata, mətbuata olan sonsuz maraq onu rayon partiya komitəsinin orqanı olan "Bolluq uğrunda" qəzeti redaksiyasına gətirib çıxardı. Cəmşid müəllim qəzetdə müxbir kimi əmək fəaliyyətinə başladı. Çox keçmədən rayon qəzetində Cəmşid Xəlilovun reportaj, felyeton, oçerk və digər janrlardan olan yazıları dərc olundu. Onun ilhamla qələmə aldığı yazılar oxucular tərəfindən razılıqla qarşılanırdı. Bir müxbir kimi hərdən rayonun kəndlərinə yollanır, təsərrüfatlarda olan nöqsanları qəzet səhifələrində işıqlandırır, çox keçmir tənqidi yazılar rayon partiya komitəsinin bürosunda müzakirə olunur, təqsirkarlar cəzalandırılırdı.

Cəmşid Xəlilovun mətbuata ideoloji silah kimi baxması, qəzet səhifələrində tənqidə üstünlük verməsi diqqətdən yayınmadı.

Çox keçmədən iti qələm sahibinə çevrilən Cəmşid Xəlilov Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetinin Basarkeçər, Martuni, Krasnoselsk, Kamo, İcevan və Sevan bölgələri üzrə xüsusi müxbiri təyin olundu. Bölgələr üzrə müxbir işləyərkən Cəmşid Xəlilov rayonlara, idarə, müəssisə, məktəb və səhiyyə ocaqlarına baş çəkir, qələmə aldığı hadisələr, obyektivlik işlədiyi qəzetin kollektivini razı salırdı. Çox vaxt bacarıqlı jurnalist ermənilərin təzyiqi ilə qarşılaşır, onun hazırladığı tənqidi yazılar millətçi daşnaklar tərəfindən kəskin etirazla qarşılanır, hər vasitə ilə azərbaycanlı jurnalisti qara ləkə yaxmaqla mətbuatdan uzaqlaşdırmağa çalışırdılar.

Belə bir vaxtda dostları və yaxınları Cəmşid müəllimin pedaqoji sahəyə qayıtmasını tövsiyə etdilər. O, doğma kəndləri Kiçik Məzrəyə məktəb direktoru təyin olundu. Cəmşid Xəlilov pedaqoji kollektivə uzun müddət rəhbərlik etdiyi dövrdə məktəbdə təlim-tərbiyə maksimum səviyyəyə çatdırıldı. Ali məktəblərə daxil olan gənclərin sayı ilbəil artdı, 90 faiz mənimsəmə oldu.

C.Xəlilov məktəb direktoru işlədiyi dövrdə "SSRİ-nin maarif əlaçısı" döş nişanına, "Əməkdar müəllim" fəxri adına layiq görüldü. Maarif Nazirliyinin Fəxri Fərmanı, SSRİ Bilik Cəmiyyətinin diplomu Cəmşid müəllimin mükafatlarının sayını artırdı. O, tez-tez rayon partiya komitəsində keçirilən büro iclaslarına dəvət olunurdu.

Cəmşid müəllimin kəsərli çıxışları rəhbər vəzifələrdə çalışan daşnakları qane etmirdi. Çox vaxt onun qarşısına sipər çəkməyə çalışırdılar. Cəmşid Xəlilov ermənilər tərəfindən ona göstərilən qərəzli mövqeyə, ədalətsizliyə dözə bilmədi, 1979-cu ildə Göyçə mahalından ayrılmağa məcbur oldu. Azərbaycana üz tutdu, Politexnik İnstitutunun Gəncə filialında hazırlıq şöbəsində çalışmağa başladı. Eyni zamanda, institutda ilk dəfə olaraq Cəmşid Xəlilovun redaktorluğu ilə "Texnoloq" qəzeti dərc olundu. Az vaxtda qəzet kəskin ideya silahına çevrildi.

Redaktor olduğu dövrdə C.Xəlilov səmərəli fəaliyyətinə görə "Qızıl qələm" və H.B.Zərdabi mükafatlarına layiq görüldü. Diqqət və zəhmətlə hördüyü söz sarayının hər bir "kərpic"ində ömrünün mənasını naxışladı. Məhz insanlar arasında dərin hörmət sahibi olduğundan Gəncə şəhəri Nizami Rayon İcra Hakimiyyəti ərazi evlər üçlüyünün sədri seçildi və ömrünün sonuna - 2018-ci ilə qədər bu işdə şərəflə çalışdı.

Cəmşid müəllim dəfələrlə Gəncə şəhəri, Nizami Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanına və qiymətli hədiyyələrinə layiq görülmüşdür.

O, qayğıkeş ata, el ağsaqqalı idi. Böyük oğlu Zabit Xəlilov komsomol, partiya orqanlarında işləmiş, uzun müddət Gəncə şəhəri Nizami Rayon İcra Hakimiyyəti başçının müavin vəzifəsində çalışmışdır. Hazırda o, atasının yolu ilə gedir, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin orqanı "Respublika" qəzetinin bölgə müxbiridir.

Həmişə qəlbi vətən həsrəti, Göyçə eşqi ilə döyünmüş Cəmşid Xəlilovun ömür yolu nəsillərə nümunədir. Onda dosta qarşı dəyişməz, xeyirxah münasibət, səmimiyyət, sözübütövlük var idi. Ömrünü-gününü tərəqqiyə sərf etmişdir. Telli sazın, aşıq poeziyasının vurğunu olmuşdur. Sədəfli sazda "Göyçə gülü" aşıq havası səslənəndə xəyal Cəmşid Xəlilovu qoynuna alıb hər qarışında ayaq izləri qalan ulu Göyçəyə, Göyçə gölünün nəğməli sahillərinə, "Sarı yerə", "Abbas bəy" yaylağına aparıb çıxarardı, gözləri dolardı...

**Nürəddin MƏMMƏDOV,**
**Gəncə Ağsaqqallar Şurası İdarə Heyətinin həmsədri, ADAU-nun professoru, t.e.d., "Tərəqqi" medallı.**